Ədəbiyyat qəzeti

32 17 aprel 2021-ci il

# Onlar bilməyəcək... mən ağlayacam Bir qadın ömrünün sənsizliyinə.



Vahid ASLAN

## İgid əsgərim

Bir şanlı, bir qızıl tarix adına
Nə yazdın, sən yazdın, vətən əsgəri!
Söykənib vətənin qayalarına,
Daşların üstündə yatan əsgərim!

Verdin qayalarla kürək-kürəyə,
Gücünə güc qatdı vətən sevgisi.
Atıldın irəli: - Qarabağ deyə,
Yeri də, göyü də titrətdi səsin!

Hünərin dünyanı heyrətə saldı,
Ey mənim qəhrəman, igid əsgərim!
Sən haqq savaşınla qələbə çaldın
Bayrağa büründü kəndim, şəhərim!

Gələn sabahlara şanlı yol açdın,
Sənə bənzəyəcək bu yoldan ötən!
Qanınla, canınla bir əsər yazdın,
Yazdığın əsərin baş hərfi, vətən!

## Şəhid qadınının dilindən

Açıldı gecəmin qəmli səhəri,
Sənsiz oyanacam yuxudan yenə.
Həsrətin olacaq, bir də xatirən,
Məni için-için ağladan yenə.

Oğlunun başını sığallayacam,
Qızının gözündən öpəcəm yenə.
Onlar bilməyəcək... mən ağlayacam
Bir qadın ömrünün sənsizliyinə.

Qorxma, inan mənə, heç zaman, heç vaxt
Kimsə görməyəcək göz yaşlarımı.
Sən cavan qalsan da ömrüm, bəri bax!
Unutma, saralan baxışlarımı.

Şəhidin dalınca ağlamaq olmaz,
Şəhid qadınıyam, bilirəm bunu!
Bəs mən ağlamasam... ürəyim yanmaz?!.
Bəs mən neyləyəcəm ömrüm uzunu?..

Lənətmi yağdırım müharibəyə?..
Səni əllərimdən alıb apardı.
Sənin anan boyda doğma vətənin,
Mənim sənin boyda bir dünyam vardı...

Mənə gəl yalançı təsəlli olma,
Bəsdi nağıllara aldandım, yetər!
Kimsə bilməyəcək dərdimi, amma
Sənsiz yaşamağım, ölümdən betər!

## Bayrağın mübarək, vətən

Çıxmısan bir şanlı yola,
Zəfər səninlə qol-qola.
Mayası həqiqət olan
Sınarın mübarək, vətən!

Əmr verilib: - İrəli!
Çiynindədi Türkün əli!
Hər gün qələbə müjdəli
Sorağın mübarək, vətən!

Təqvimin qızarır, yanır.
Qara günlər qaralanır.
Qələbələr sıralanır,
Varağın mübarək, vətən!

Oğulların coşan dəniz,
Eşqi ümman, qəlbi təmiz!
Hər qarışı candan əziz
Torpağın mübarək, vətən!

Göylər kimi yırğalanan,
Ulduz-ulduz sıralanan,
Qarabağda dalğalanan
Bayrağın mübarək, vətən!

## Özüm boyda

Baxma, bir az çox yaşadım.
Ayrılığınla yaşıdım.
Ömür boyu dərd daşıdım,
Özüm boyda dərd - adamım!

Ümidlərim ha sarsılmış...
Hərdən yanmış, hərdən sınmış...
Dağ havasında qarsımış,
Qaya kimi sərt - adamım!

Halallıqdı mənim olan,
Suyum olan, dənim olan...
Nadanlığa qənim olan,
İnsanlığa mərd - adamım!